*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 mart 2015-ci il | № 23 (1939) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

***Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, dövlət və hökumət nümayəndələri şənlikdə iştirak ediblər. Dövlətimizin başçısı, xanımı və ailə üzvləri əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər. Milli geyimli qızlar və oğlanlar Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.***

***Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.***



- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan vətəndaşına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bizim əziz, sevimli bayramımızdır, milli sərvətimizdir. Xalqımız əsrlər boyu Novruzu əziz bayram kimi qeyd edir. Ancaq müstəqillik dövründə biz bu bayramı rəsmi bayram kimi qeyd etməyə başlamışıq və sabahdan 9 gün istirahət günüdür. Bizim müstəqilliyimiz də milli dəyərlər, ənənələr üzərində qurulubdur. Müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. İyirmi dörd ilə yaxındır ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş qarşıdurması, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi və siyasi böhran, əlbəttə ki, müstəqilliyimizə çox böyük zərbə vurmuşdu. Ancaq ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi. Azərbaycanda siyasi və iqtisadi islahatlar aparılmağa başlanmış və ölkəmiz inkişaf yoluna qədəm qoymuşdur. O vaxtdan - 1990-cı illərin ortalarından bu günə qədər 20 il ərzində Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, müstəqilliyimiz möhkəmlənir, güclənir və Azərbaycan bu gün dünya miqyasında çox dəyərli ölkə, tərəfdaş kimi tanınır.

Biz müstəqil siyasət aparırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Əsrlər boyu xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. İlk növbədə, biz milli dəyərlərimizi, bayramlarımızı, ədəbiyyatımızı, incəsənətimizi, doğma ana dilimizi, xalq kimi özümüzü qoruya bilmişik. Bu gün isə biz azadıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu günün reallıqları göstərir ki, ancaq müstəqillik dövründə bizim xalqımız yüksək zirvələrə çata bilər. Bugünkü dövr, əgər bizim bütün tariximizi nəzərə alsaq, ən sürətli inkişaf dövrüdür. Biz bundan sonra da müstəqil həyatımızı təmin edəcəyik. Xalqımızın rahat yaşamasını təmin edəcəyik. Ancaq o da təbiidir ki, Azərbaycan gücləndikcə bizə təzyiqlər də artır. Bizim müstəqil siyasətimiz heç də hamıya xoş gəlmir. Belə olan halda bizə qarşı təzyiqlər də artır və təzyiq mexanizmləri də işə salınır. Bunun nəticəsidir ki, bu gün bəzi xarici dairələr Azərbaycana qarşı açıq kampaniya aparırlar. Biz buna hazırıq. Bu kampaniya əslində heç vaxt dayanmamışdır. Sadəcə olaraq önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da eybəcər formalar alır. Biz bunu üç il bundan əvvəl - 2012-ci ildə "Eurovision" müsabiqəsi ərəfəsində görmüşük. Bu gün də birinci Avropa Oyunları ərəfəsində bunu görürük. Bu, koordinasiya şəklində təşkil edilmiş, bir və ya bir neçə mərkəzdən idarə olunan antiazərbaycan kampaniyasıdır ki, bunun məqsədi ölkəmizi ləkələmək, qaralamaq, işlərimizə kölgə salmaq və Azərbaycanı geridəqalmış, qeyri-demokratik, azad olmayan ölkə kimi təqdim etməkdir. Bütün bunlar, təbii ki, yalan üzərində qurulur. Ona görə nə Azərbaycan xalqı, nə dünya ictimaiyyəti buna inanmır. Azərbaycan xalqı hər şeyi öz gözü ilə görür. Son illərin inkişafı, şəhərlərimizin abadlaşdırılması, ölkəmizin iqtisadi, sosial inkişafı, beynəlxalq nüfuzumuzun artırılması göz qabağındadır. Eyni zamanda, bizim işlərimiz dünya ictimaiyyəti üçün də artıq sirr deyil. Çoxsaylı tədbirlər, sərgilər, konfranslar, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı artıq beynəlxalq ictimaiyyətə də Azərbaycan haqqında kifayət qədər dolğun məlumatın çatdırılması üçün şərait yaradır.

Ancaq buna baxmayaraq, biz görürük ki, dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan etmişlər. Bir daha demək istəyirəm ki, bütün bu səylərin heç bir nəticəsi yoxdur, ola da bilməz. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin.

Azərbaycanda bütün azadlıqlar təmin edilib. Azərbaycanda azad cəmiyyət formalaşıb. Hər kəs azaddır. Azad mətbuat təmin edilib. İnternetə heç bir məhdudiyyət qoyulmur, azad internet var. Sərbəst toplaşmaq azadlığı təmin edilib. Vicdan, din azadlığı bəzi ölkələrdən fərqli olaraq tam şəkildə təmin edilibdir. Ancaq bizi ittiham etmək istəyən dairələrin öz ölkələrindəki vəziyyətə baxın. Bax, elə dünən Avropanın mərkəzində yüzlərlə nümayişçi döyülərək, söyülərək həbs edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır. Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Yoxsa ki, bu, ikili standartlar siyasətidir?! Yəqin ki, hər ikisidir. Nə üçün beynəlxalq qurumlar bəyanatlar yaymırlar, vermirlər? Nə üçün qətnamələr qəbul edilmir? Bax bu suallara cavab almaq çox çətindir. Mən həm xarici həmkarlarımla, həm beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu sualları açıq şəkildə onların üzünə deyərək verirəm. Bəlkə buna görə də Azərbaycana qarşı təzyiqlər daha da kəskinləşir.

Əfsuslar olsun ki, bu gün dünya siyasətində beynəlxalq hüquq yox, riyakarlıq, ikili standartlar, ayrı-seçkilik, irqçilik, islamofobiya, ksenofobiya hökm sürür. Budur bugünkü reallıqlar. Ona görə biz buna hazır olmalıyıq və biz hazırıq. Biz ölkəmizi gücləndiririk, ölkəmizi inkişaf etdiririk. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün azadlıqlar mövcuddur - siyasi azadlıqlar, vicdan azadlıqları, iqtisadi sərbəstlik. Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir.

Bu gün hər tərəf alovlanır, Yaxın Şərq, Avropa, MDB məkanı, ya qanlı toqquşmalar, yaxud da ki, etnik, dini zəmində qarşıdurmalar, qarşılıqlı ittihamlar. Baxın, Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, bizim siyasətimizdir, xalqın da sifarişidir. Azərbaycan bu gün dünya üçün əhəmiyyətli ölkəyə çevrilibdir. Bizi beynəlxalq aləmdə dəstəkləyən ölkələrin sayı durmadan artır. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Qoy bizi ittiham etməyə çalışan ölkələr 155 ölkənin dəstəyi ilə seçilsinlər, görək necə seçilirlər. Bax, budur reallıq. Ona görə, əlbəttə ki, Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz.

Avropa Oyunları isə sadəcə olaraq bir bəhanədir. Sanki bəzi xarici qüvvələr var ki, bunu bizə çox görürlər. Baxmayaraq ki, biz öz üzərimizə böyük məsuliyyət götürmüşük. Yəni, bu Oyunları iki il yarım ərzində hazırlamaq çox çətin məsələdir. Bu Oyunlar Olimpiya Oyunlarının səviyyəsində keçiriləcək. Olimpiya Oyunlarını keçirmək üçün yeddi il vaxt verilir. Biz isə cəmi iki il yarıma bunu edirik və ən aşağı büdcə ilə bunu edirik.

Dünən Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası olmuşdur. Bizim bütün Avropa Oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır "Transparency International?" Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. On ildir inşa edilir. Bizim Avropa Oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki, tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar? Niyə bu barədə yazmırlar? Bu, ritorik suallardır. Ancaq biz bu sualları verməliyik və veririk. Çünki biz ədalətin tərəfdarıyıq. Hər yerdə ədalət olmalıdır - cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə. Ədalət pozulduqda hər şey pozulur, inam pozulur. Sanki dünyada yeni bir dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək.

Bizim əsas problemimiz - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, əfsuslar olsun ki, həll olunmur. Keçən il vasitəçilər tərəfindən səylər göstərilmişdir. Bilirsiniz ki, avqust, sentyabr, oktyabr aylarında Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları, yüksək vəzifəli şəxslər səylər göstərmişdilər, üç görüş keçirilmişdir. Sonuncu görüş Parisdə hər iki tərəfin fikrinə görə uğurlu keçmişdir. Ancaq o görüşdən bir həftə keçməmiş Ermənistan növbəti təxribata əl atdı. Ağdamda, işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başladı ki, bizi yenə də təxribata çəksin. Biz təxribata getmək istəmirdik. Çünki öz beynəlxalq öhdəliklərimizə sadiqik. Bir daha bildirmək istəyirəm ki, oktyabrın sonunda Parisdə keçirilən görüşdə demişik ki, biz gərək təmas xəttindəki gərginliyi azaldaq, sülh danışıqlarının mahiyyətinə daha da çox fikir verək. Ona görə çox təmkinlə özümüzü aparmışıq. Amma düşmən bizim bu davranışımızı başqa cür yozub və mövqelərimizə hücum çəkib. Belə olan halda, təbii ki, Azərbaycan əsgəri rəşadət göstərərək düşmənin vertolyotunu məhv edib. Ondan sonra bizdən qisas almağa çalışmağa başlamışlar. Hətta Ermənistanın ən yüksək rütbəli, vəzifəli şəxsləri demişlər ki, biz qisas alacağıq. O faşist ideologiyasının nəticəsində onlarla erməni əsgəri təmas xəttində həlak olmuşdu. Mən demişəm və bir daha demək istəyirəm ki, ölmək istəmirsinizsə, Ağdama, Füzuliyə getməyin, oturun öz yerinizdə. Qisasa gəldikdə isə, qisası biz almalıyıq və alırıq da. Biz Xocalı qurbanlarının qisasını alırıq və alacağıq. Şəhidlərimizin qanı yerdə qalmamalıdır və qalmır.

Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ondan sonra biz azərbaycanlılar, əlbəttə ki, bütün qədim torpaqlarımıza qayıdacağıq - İrəvana da, Göyçəyə, Zəngəzur mahalına da. Bütün bunlar bizim qədim torpaqlarımızdır. Gənc nəsil də bunu bilməlidir ki, bizim torpaqlarımız sadəcə olaraq bugünkü müstəqil Azərbaycan torpaqları deyil. Biz o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq. Biz hər gün çalışmalıyıq ki, o günü yaxınlaşdıraq.

Ona görə biz daha da güclü olmalıyıq. Daha da güclü orduya sahib olmalıyıq. Ordu quruculuğu bizim üçün indi əsas vəzifədir. Ona görə bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Bu gün Azərbaycan Ordusu həm hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında, dünyanın ən qabaqcıl orduları sırasındadır. Bunu biz yaratmışıq. Çünki başqa cür mümkün deyil.

Bu gün dünyada beynəlxalq hüquq işləmir, beynəlxalq müqavilələr, sadəcə olaraq kağız parçasıdır, heç bir dəyəri yoxdur. Kimin gücü var o müqavilələrə məhəl qoymur. Yəni, dünyada yeni bir dövr başlayıbdır, bunu biz bilməliyik. Bu dövrü biz başlamamışıq. Biz həmişə beynəlxalq hüquqa əsaslanmışıq və bütün siyasətimizi belə qurmuşuq. Öz səsimizi ucaltmışıq ki, nə üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir. Orada birbaşa yazılıb ki, Azərbaycan torpaqları işğaldan qeyd-şərtsiz və dərhal azad edilməlidir. Yəni, beynəlxalq hüquq sadəcə olaraq güclü dövlətlər üçün bir alətdir ki, güclü olmayan dövlətləri nəyə isə məcbur etsin. Amma onların özləri üçün beynəlxalq hüquq heç bir şeydir. Bunu biz görürük, bunu görməyən yoxdur. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür o da haqlıdır. Bu nəyi göstərir? Onu göstərir ki, güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, xalqla iqtidar arasında birlik möhkəmdir. Bizim islahatlarımız, siyasi addımlarımız, beynəlxalq səviyyədə apardığımız işlər xalq tərəfindən dəstəklənir və bugünkü Azərbaycan reallıqları bunu göstərir. Son illər ərzində Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Bax, bu yaxınlarda - iki gün bundan əvvəl biz qədim türk torpağı olan Qars şəhərində TANAP layihəsinə start verdik. Yəni, bu, tarixi layihədir. TANAP layihəsi "Cənub" qaz dəhlizinin bir hissəsidir, önəmli hissəsidir. Amma "Cənub" qaz dəhlizi dörd hissədən ibarətdir: "Şahdəniz" yatağı, Cənubi Qafqaz qaz kəməri, TANAP və TAP. Azərbaycan bütün bu layihələrdə fəal iştirakçıdır və bu gün biz yeni reallığı yaradırıq. Çünki enerji təhlükəsizliyi bu gün milli təhlükəsizlik qədər önəmlidir. Heç bir ölkə öz milli təhlükəsizliyini enerji təhlükəsizliyini təmin etmədən sığortalaya bilməz. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Görün, Azərbaycan qazı bu gün Avropa üçün, Avrasiya üçün, bu bölgə üçün nə qədər böyük əhəmiyyət daşıyır. Yəni, yeni enerji xəritəsi yaradılır. Bunu biz yaradırıq, öz tərəfdaşlarımızla birlikdə. Ona görə təbii ki, görülən bu işlər Azərbaycanın geosiyasi əhəmiyyətini artıracaq və bizim gücümüzü də artıracaq, təsir imkanlarımız da artacaq. Bu gün də kifayət qədər güclüdür. Bu gün bölgədə nə iqtisadi, nə siyasi, nə başqa sahələrdə heç bir layihə bizim razılığımız olmadan icra edilə bilməz. Bunu yaxın tarix göstərib.

Azərbaycan bu gün bölgənin aparıcı ölkələrindən biridir və bizim siyasət ədalətli siyasətdir. Biz bütün ölkələrlə bərabərhüquqlu, qonşularla mehriban münasibətlərin tərəfdarıyıq. Biz bərabərliyin tərəfdarıyıq. Biz hesab edirik ki, dünyada böyük-kiçik ölkə anlayışı olmamalıdır. Bütün ölkələr bərabər hüquqa malikdir. Ona görə biz bütün ölkələrlə öz siyasətimizi bu prinsiplər əsasında qururuq. Heç bir ölkə qarşısında öhdəlik götürməmişik və bu, mümkün deyil. Beynəlxalq təşkilatlarda ki, biz üzvük, o öhdəlikləri biz yerinə yetiririk, onlara hörmətlə yanaşırıq, vəssalam. Bizim başqa heç bir öhdəliyimiz yoxdur. Əgər kimsə hesab edir ki, Azərbaycanı nəyə isə təhrik etmək, sövq etmək, məcbur etmək mümkündür, səhv edir və bu səhv siyasətindən əl çəkməlidir. Son illərin tarixi bunu göstərir. Biz öz yolumuzla gedirik. Bu yol tərəqqi, inkişaf yoludur. Bu yol azadlıq-müstəqillik yoludur və biz bu uğurları bu yolda əldə etmişik.

Bizim şəhərlərimiz abadlaşır, insanların rifah halı yaxşılaşır. Azərbaycan bu gün dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Bakımız gözəlləşir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının qədim tarixi, bizim milli sərvətimiz olan Qız qalası, Şirvanşahlar sarayı, İçərişəhər - bu, dünya miqyaslı sərvətdir. Eyni zamanda, Bakının yeni simvolları, yeni rəmzləri yaradılır - Bayraq Meydanı, Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Ağ şəhər, Xalça Muzeyi, bu yaxınlarda açılan bulvar. Onun uzunluğu artıq 16 kilometrə çatır. Yəni, budur bu gün bizim ölkəmiz. Azərbaycana gələn hər bir qonaq əgər o, qərəzli deyilsə, bunu görür, etiraf edir. Dostlarımız sevinir, düşmənlərimiz peşman olurlar.

Biz öz yolumuzla gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik və ölkəmizi daha da gücləndirəcəyik.

Bayramınız mübarək olsun!

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar

## Azərbaycan Respublikasının Müdafiə naziri Novruz bayramında cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Novruz bayramı ilə əlaqədar cəbhəboyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrdə olub.***



Müdafiə naziri əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin "N" hərbi hissəsinin həyətində ucaldılmış büstünü ziyarət etdi. Abidənin önünə gül-çiçək dəstələri qoydu.

Qərargahın qarşısında düzülmüş zabitlərlə görüşən nazir onları salamladı. Novruz bayramı münasibəti ilə təbrik etdi, xidmətlərində uğurlar arzuladı. Müvafiq tapşırıq və göstərişlər verdi.

Müdafiə naziri ön xətdə səngərlərdə dayanaraq torpaqlarımızı qoruyan zabit və əsgərlərlə də görüşdü. Əsgərlərə bayram sovqatı verdi.

Bayram münasibəti ilə şəxsi heyəti təbrik edən Müdafiə naziri Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq, son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırdı.

Nazir ön xətdə yerləşən hərbi hissədə yeni tikilmiş əsgər yeməkxanasının açılışını etdi. Yeməkxana müasir tələblərə cavab verən avadanlıq və qurğularla təmin olunub. Sonra Müdafiə naziri əsgərlər üçün hazırlanmış yeməyin dadına baxdı. Aşpazlarla söhbət edərkən onlara tövsiyə etdi ki, əsgərlər üçün yeməyi həmişə dadlı, ləzzətli və keyfiyyətli bişirsinlər, çünki bu yeməyi onların balaları yeyəcək. Sonra Müdafiə naziri süfrə arxasında əsgərlərlə birlikdə nahar etdi.

Az sonra o əsgərlərdən biri ilə söhbətləşməyə imkan tapdım. Əsgər Seymur Nuriyev dedi:

- Mən əsgər kimi qürrələnirəm ki, cənab nazirimiz çörəyini mənimlə böldü, "Birlikdə çörək kəsirik, torpaqlarımızı da birlikdə azad edəcəyik", - dedi. Bu, biz əsgərlərə həm sevgidi, həm də inamdı. Bu sevgi, bu inam mənim hərbi xidmətə məsuliyyətimi daha da artıracaq. Cənab nazirimizin arzuladığı kimi, yüksək döyüş və mənəvi hazırlığa malik əsgər olacağam. Fəxr edirəm ki, nazirimizlə çörək kəsmişəm...



* * *

Müdafiə nazirini "N" hərbi hissəsində zabit Vilayət Quliyev qarşıladı. Nazir ilk olaraq tankçılarla görüşdü. Zirehli texnikanın qarşısında düzülmüş hərbçilər növbə ilə özlərini Müdafiə nazirinə təqdim edirdilər. Nazir tankçılarla görüşür, xidmətləri ilə bağlı onlara müxtəlif suallar verirdi.

Tank komandiri gizir Mənsur İsmayılov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu sürücü-mexanik Elgün Abbasov, tuşlayıcı-operator Namiq Qurbanov Müdafiə naziri ilə olan bu görüşdən məmnun qaldıqlarını bildirdilər. Dedilər ki, hörmətli Müdafiə nazirinin Novruz bayramında cəbhə bölgəsində yerləşən hərbi hissələrə gəlişi onları daha da ruhlandırır. Döyüşçülərimiz torpaqlarımızın müdafiəsinə həmişə hazırdırlar.



Müdafiə naziri tankçıları Novruz bayramı münasibəti ilə təbrik etdi, onlara xidmətlərində yeni-yeni uğurlar arzuladı, əsgərlərə bayram sovqatı təqdim etdi, xatirə şəkli çəkdirdi. Sonra hərbi hissənin tədris otaqlarına, camaşırxanasına, kazarmalara, zabit və əsgər yeməkxanalarına baş çəkdi, lazımi məsləhət və tövsiyələr verdi.

* * *

Müdafiə naziri cəbhə bölgələrinə səfəri çərçivəsində hospitala da baş çəkdi. Şəfa ocağının həyətində böyük canlanma var idi. Hospitalın şəxsi heyəti Novruz şənliyi keçirirdi. Musiqi dalğa-dalğa ətrafa yayılırdı. Şənliyə qatılan Müdafiə naziri hospitalda müalicə olunan əsgərlərlə, tibb heyəti ilə görüşdü, onların Novruz bayramını təbrik etdi. Əsgərlərə bayram sovqatı verdi.

Sonra Müdafiə naziri hospitalın şöbələrində müalicə olunan əsgərlərə baş çəkdi, onlara bayram hədiyyəsi təqdim olundu.

Müdafiə naziri yeməkxanaya da getdi. Şəxsi heyət üçün hazırlanmış yeməklər nazirə təqdim olundu. Müdafiə naziri yeməklərin dadına baxdı, aşpazlara məsləhət və tövsiyələrini verdi.

Şəfa ocağında müalicə olunan hərbçilərlə görüşüb söhbət etdim. Bayram ərəfəsində onların ürək sözlərini dinlədim. Əsgərlərdən Anar Bərxudarov, Ramiq Qazıbəyov, Mirpaşa Qarayev, Sərxan Hüseynov onlara göstərilən diqqət və qayğıdan, həmçinin Müdafiə nazirinin Novruz bayramında onlara baş çəkməsindən yüksək ovqatla danışdılar. Əsgər Ramiq Qazıbəyov dedi: “Sevinc içindəyəm. Bu gün həyatımın ən yaddaqalan anlarını yaşayıram. Belə əziz gündə Müdafiə naziri hospitala gələrək bizimlə görüşdü, bayramımızı təbrik etdi, bizə tezliklə sağalıb xidmət yerimizə - hərbi hissəyə qayıtmağımızı arzuladı. Bu əziz gündə bayramımızı təbrik etdiyinə görə hörmətli nazirimizə əsgərlər adından öz minnətdarlığımı bildirirəm. Biz əsgərlər Vətən qarşısındakı övladlıq borcumuzu şərəf və ləyaqətlə yerinə yetirəcəyik. Əldə silah torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacağıq”.

Hospitalın həyətində şənlik davam edir. Musiqiçilər könül oxşayan rəngarəng mahnılar ifa edirlər. Müalicə olunan əsgərlər isə qol götürüb oynayır, bayramı şən keçirməyə çalışırlar.

* * *

Müdafiə nazirinin növbəti səfəri "N" hərbi hissəsinədir. Burada da bizi musiqi sədaları ilə qarşıladılar. Şəxsi heyət hərbi hissənin geniş meydanında toplaşmışdı. Şən musiqi sədaları dalğa-dalğa ətrafa yayılır, könül oxşayırdı. Pəhləvanlar meydanda öz bacarıqlarını nümayiş etdirirdilər.

Zabit Etibar Orucov Müdafiə naziri general-polkovnik Zakir Həsənovu hərbi hissənin qərargahının yanında qarşıladı. Hərbi hissədə aparılan quruculuq işləri barədə nazirə ətraflı məlumat verdi. Müdafiə naziri yenicə istifadəyə verilmiş binaya daxil olaraq əsgərlərin yataq yerlərinə, yeməkxanaya, hamam və məişət otaqlarına baxdı. Kazarmada səliqə-sahman və təmizlik hökm sürürdü.



Sonra Müdafiə naziri hərbi hissənin parkına gələrək döyüş texnikasına baxış keçirdi. Hərbi hissə komandirinə lazımi tapşırıq və məsləhətlər verdi.

Hərbi hissənin geniş meydanında isə Novruz şənliyi öz axarı ilə davam edirdi. Gəncə Qarnizon Zabitlər Evinin ansamblı şən mahnılarla şəxsi heyətin bayramlarına rəng qatırdılar. Novruz bayramının personajları olan Kosa və Keçəl meydanda maraqlı səhnəcik göstərirdilər.

* * *

Müdafiə nazirini müşayiət edən maşın karvanı ön xəttə tərəf istiqamət götürür.

..."N" hərbi hissənin qərargahına çatdıq. Hərbi hissə komandiri "Farağat" komandası verərək Müdafiə nazirini qarşıladı. Sonra hərbi hissənin qərargahına daxil olaraq buradakı şəraitlə tanış olan nazir hərbi hissə komandirinə lazımi tapşırıqlar verdi.

Bir azdan ön xəttə yola düşdük. Haramı düzü bizi öz ağuşuna aldı. Yazın gəlişi hər addımda hiss olunurdu. Ətraf yaşıllığa bürünmüşdü. Payızdan əkilmiş taxıl torpaqdan bir qarış boyunca baş qaldırmışdı. Göz işlədikcə uzanıb gedən taxıl zəmiləri yaşıl rəngli dənizə bənzəyir. Hər tərəf gül-çiçək açıb, quşların şirin nəğməsi ətrafa səs salır...

Belə gözəllikləri seyr edə-edə tikintisinə xeyli əvvəl başlanmış təlim mərkəzinə çatdıq. Burada aparılan böyük quruculuq işləri barədə Müdafiə nazirinə ətraflı məlumat verilir. Sonra nazir döyüş texnikalarına baxış keçirir. Tankların, piyadaların döyüş maşınlarının sürücü-mexanikləri ilə söhbət edir. Nazir döyüş texnikalarının saxlanması barədə birləşmə və hərbi hissə komandirlərinə tapşırıq və göstərişlər verir.

Texnikanı idarə edən sürücü-mexaniklərlə, tank komandirlərinin bir neçəsi ilə tanış oldum. Piyadaların döyüş maşınının komandiri gizir Eyyub Osmanov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu sürücü-mexanik Qurban Abdullayev, tank komandiri gizir Elmin Abbasov və tank komandiri gizir Şəhriyar Allahyarovla söhbət etdim. Müdafiə naziri ilə görüşdən məmnun olan tankçılar dedilər ki, hər gün poliqonda təlim keçirilir. Zirehli texnikanı idarə etməyi gənc əsgərlərə böyük həvəslə öyrədirlər. Çalışırlar ki, əsgərlərimiz zirehli texnikaları məharətlə idarə etsinlər.

Təlim mərkəzi ilə yaxından tanışlıqdan sonra yolumuza davam edirik. Yolumuz ön xətdə torpaqlarımıza keşik çəkən əsgərlərin yanınadır.

...Torpaqlarımızın keşikçilərinin yanına çatırıq. Müdafiə naziri səngərlərdə dayanan əsgərlərlə görüşüb söhbət edir, xidmətin gedişi ilə maraqlanır, onların Novruz bayramını təbrik edir. Sonra səngərlərdə dayanan əsgərlərə bayram hədiyyəsi təqdim edir, xidmətlərində uğurlar arzulayır.

* * *

Səhərdir. Səma buludlu olduğundan günəş görsənmir. Hava soyuq və çiskinlidir. Müdafiə nazirinin cəbhə bölgəsinə səfəri davam edir. İndi yolumuz "N" hərbi hissəsinin ön mövqelərinədir.

Müdafiə naziri əvvəlcə sıra meydanında dayanmış əsgərlərlə görüşdü, onların Novruz bayramını təbrik etdi, xidmətlərində uğurlar arzuladı. Əsgərlərə bayram sovqatı verdi. Bayram hədiyyəsini qəbul edən əsgərlər bir-birilərinin ardınca, həm də gur səslə "Azərbaycan Respublikasına xidmət edirəm" - deyirdilər.



Sonra Müdafiə naziri yenicə bişib sobadan çıxmış çörəyin dadına baxdı. İsti çörək hamıya paylandı. Sobada bişmiş çörək çox dadlı idi. Öyrəndim ki, ön xətdə dayanmış, şəxsi heyətə verilmiş bu sobada çörək bişirmək mümkündür. Soba çox əlverişlidir. Onu həm kömürlə, həm də odunla qalamaq mümkündür.

Sonra Müdafiə naziri kazarmaya baş çəkdi. Əsgərlərin yataq yerləri və məişət şəraiti ilə yaxından tanış oldu. Kazarmadakı səliqə-sahman diqqətimizi çəkdi. Əsgərlərin istirahət etmələri üçün burada hərtərəfli şərait yaradılıb. Şəxsi heyət asudə vaxtlarında istirahət guşəsində dama, nərd, şahmat oynayırlar. Kazarmadakı xüsusi tərtibatı olan divar mətbuatı da nəzərlərimizdən yayınmadı.

Zabit və əsgərlərlə də görüşüb söhbət etdim. Mayor Elman Nəzərov, kapitan Nofəl Əhmədov, mayor Saleh Qafarov, baş gizir Elçin Əliyev, gizir Səbzəli Mövlanov, əsgərlərdən Amil Mürvətli, Rüstəm Rzayev və başqalarının ovqatı yüksək səviyyədə idi. Vətən torpaqlarının keşiyində dayandıqlarından qürur duyurdular. Müdafiə nazirinin birbaşa ön xəttə gələrək onlarla görüşməsi, bayramlarını təbrik etməsi hərbçilərin ovqatına ovqat qatmışdı.

- Hörmətli nazirimiz ötən il də cəbhə bölgəsinə səfəri çərçivəsində bu mövqeyə gəlmişdi, - deyə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Rəşad Məmmədov sözə başladı. - Bu kazarmanın açılışı da həmin vaxt olmuşdu. Xidmət etmək üçün burada hərtərəfli şərait yaradılıb. Hamımız çiyin-çiyinə verib torpaqlarımızı erməni işğalçılarından qoruyuruq. Müdafiə nazirinin ön xəttə tez-tez səfər etməsi bizi həm ruhlandırır, həm də məsuliyyətimizi daha da artırır. Əziz bayramımız olan Novruzu bizimlə bir yerdə keçirdiyinə görə Müdafiə nazirinə minnətdarlığımızı bildiririk. Biz belə diqqət və qayğıya nümunəvi xidmətimizlə, hünər və cəsarətimizlə cavab verəcəyik.

Kazarmanın giriş qapısının üstündəki şüarlar, çağırışlar da diqqətimizdən yayınmadı. Hər kəsin oxuya və görə biləcəyi böyük hərflərlə bu sözlər yazılmışdı: "Xocalı faciəsini unutma!", "Qarabağımızı düşməndən azad edək!" Bəli, bu sözlər, bu çağırışlar hərbçilərimizin düşmənə olan nifrətini daha da artırır.

Müdafiə naziri müşahidə məntəqəsinə qalxaraq düşmən mövqelərini müşahidə etdi. Xidmətin daha da səmərəli aparılması üçün hərbi hissə komandirinə tapşırıq və göstərişlər verdi.

**(Ardı 3-cü səhifədə)**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar

## Azərbaycan Respublikasının Müdafiə naziri Novruz bayramında cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub

(Əvvəli 2-ci səhifədə)

"N" hərbi hissəsinin də ərazisi bayramsayağı bəzədilmişdi. Üçrəngli bayrağımız ən uca nöqtələrdə əzəmətlə dalğalanırdı.

Şəxsi heyətin Novruz bayramı münasibəti ilə düzüldüyü barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənova məlumat verildi. Nazir zabit və əsgərləri salamladı, onların Novruz bayramını təbrik etdi. Sıra meydanını şəxsi heyətin gur səsi doldurdu. Sonra nazir Novruz tonqalını yandırdı, xoş musiqi sədaları dalğa-dalğa ətrafa yayıldı.

Musiqi sədaları altında da dama, şahmat, daşqaldırma yarışları keçirilir, artilleriya qurğusunun "Döyüş" və "Səfər" vəziyyətinə gətirilməsi, avtomat silahının sökülüb-yığılması müsabiqəsinə start verilir.

Müdafiə naziri meydanda baş verənləri maraqla izləyir. Budur, topçular cəld və çevik hərəkətlərlə artilleriya qurğusunu "Döyüş" və "Səfər" vəziyyətinə gətirirlər. Bir azdan top komandirinin gur səsi eşidilir. O, heyət nəfərlərinin tapşırıqları yerinə yetirdiklərini bildirir. Tapşırığın vaxtında və qüsursuz yerinə yetirilməsi bir daha göstərir ki, topçuların döyüş hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an erməni qəsbkarlarının mövqelərini dəqiq atəş zərbələri ilə məhv etməyə qadir və hazırdırlar.

Tapşırığı peşəkarlıqla yerinə yetirmiş top komandiri kiçik çavuş Elçin Həmidli, heyət nəfərlərindən Xalid Ömərli, Nazim Məmmədov, Sədail Babazadə, Murad Niftəliyev, Rüstəm Əsgərovun üzləri gülürdü. Onlar bu gün Müdafiə naziri qarşısında döyüş hazırlıqlarını nümayiş etdirməkdən məmnun idilər.

Budur, Müdafiə naziri silahların sökülüb-yığılması yerinə yaxınlaşır. Qaydalara əsasən, silah 13 saniyəyə sökülməli və 22-25 saniyəyə yığılmalıdır. Bu, döyüş hazırlığının ən yüksək göstəricisidir. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Əlövsət Bəylərov isə yüksək döyüş hazırlığı nümayiş etdirərək avtomat silahını 7 saniyəyə söküb 20 saniyəyə yığdı. Bir daha hazırlığının yüksək olduğunu göstərdi.

Mayor Rais Axundov bildirdi ki, yarışlara ciddi hazırlaşıblar. Zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Torpaqlarımızı erməni işğalçılarından azad etmək hərbçilərin müqəddəs vəzifəsidir. Bu tarixi vəzifənin öhdəsindən peşəkarlıqla gəlmək üçün döyüş hazırlıqlarını daim artırırlar. Təlim-məşqlər səmərəli keçir.



Bugünkü yarışlar bir daha göstərdi ki, heyət nəfərlərinin döyüş hazırlığı yüksəkdir. Zabit və əsgərlər hər an döyüş tapşırığını yerinə yetirməyə, düşmən hədəflərini dəqiq atəş zərbələri ilə məhv etmək bacarığındadırlar.

Baş leytenant Zaur Quliyev də başqa zabitlər kimi sevinc içində idi. Öz sevincini bizimlə bölüşən zabit dedi: “Hörmətli nazirin bu bayram günündə bizim hərbi hissəyə gəlməsi, zabit və əsgərləri təbrik etməsi, Novruz tonqalını yandırması məsuliyyətimizi daha da artırır. Bütün bunlara görə hörmətli nazirimizə minnətdarlığımı bildirirəm. Biz bundan sonra da döyüş tapşırıqlarını bacarıqla yerinə yetirəcəyik”.

Müdafiə naziri yarışların gedişini izlədikdən sonra tədris otaqlarına, kazarmalara da baş çəkdi, yeməkxanaya gedib əsgərlərlə süfrə arxasında çay içdi.





* * *

Müdafiə naziri bu hərbi hissədən birbaşa ön xəttə yollandı. Qarşılanma mərasimindən sonra nazir kəşfiyyat taborunun dayaq məntəqəsinə getdi. Burada xidməti vəzifəsini yerinə yetirən, torpaqlarımıza keşik çəkən zabit və əsgərlərlə görüşdü. Xidmətlərinin gedişi ilə maraqlandı, onlara uğurlar arzuladı. Sonra əsgərlərin Novruz bayramını təbrik etdi, bayram sovqatı verdi.

* * *

"N" hərbi hissəsinin şəxsi heyəti də bayram ovqatına köklənmişdi. Öyrəndik ki, Tərtər rayon uşaq musiqi məktəbinin kollektivi hərbçilərə qonaq gəlib. Hərbi hissənin sıra meydanında böyük canlama var idi. Əsgərlər musiqi sədalarına qol götürüb oynayır, şənlənirdilər.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı M.Məmmədov da əsgərlərlə görüşə gəlmişdi. O, Söhbət zamanı dedi ki, orduya, hərbçiyə kömək etmək, qayğı göstərmək ən başlıca vəzifələrimizdən biridir. Çünki ordu bu yurdun, bu torpağın müdafiəçisidir. Biz evimizdə rahatca yaşayırıq, amma hərbçilər gecə-gündüz torpaqlarımızı erməni işğalçılarından qoruyurlar. Onların üzərinə böyük tarixi vəzifələr düşür. Hərbçilər bu tarixi vəzifələrin öhdəsindən bacarıqla gəlirlər. Hərbi hissəyə hər hansı bir kömək lazım olursa, rayon rəhbəri olaraq onlara yardımımızı əsirgəmirik. Hərbçilərə qayğı həmişə ön sıradadır. Biz müntəzəm olaraq həm əlamətdar günlərdə, həm də bayramlarda hərbi hissələrə gedir, əsgərlərə bayram sovqatı aparırıq. Müdafiə nazirinin hərbi hissəyə gəlişi ərəfəsində biz yenə də hərbçilərin qonağıyıq. Bundan sonra da hərbçilərə diqqət və qayğı göstərəcəyik.







- Zabit və əsgərlərin döyüş hazırlığının daha da yüksək olması üçün daim dərs və məşğələlər keçirik, - deyə mayor Vüqar Şıxlinski sözə başladı. - Əsgərlərimizin döyüş hazırlığı nə qədər yüksək olarsa, qələbəni o qədər asanlıqla əldə edərik. Bu gün şəxsi heyət üçün ikiqat bayramdır. Həm Novruz bayramıdır, həm də hörmətli Müdafiə naziri hərbi hissəmizə gəlib şəxsi heyəti bayram münasibəti ilə təbrik edəcəkdir.

Müdafiə nazirinin gəlişi şərəfinə hərbi hissədə şəxsi heyət düzülüb. Onların səliqəli geyimi hər kəsdə qürur hissləri doğurur. Müdafiə nazirini gətirən avtomobil əraziyə daxil olan kimi təntənə ilə qarşılanır. Nazirə şəxsi heyətin bayram münasibəti ilə düzüldüyü barədə məlumat verilir. Müdafiə naziri əsgərlərlə salamlaşır, onları Novruz bayramı münasibəti ilə təbrik edir.



Müdafiə naziri hərbi hissənin sıra meydanında davam edən bayram şənliyinə qoşuldu. Əsgərlərlə birlikdə rəqs etdi. Şəxsi heyətə bayram sovqatı verdi. Sonra tribunaya qalxaraq çıxış etdi. Nazir dedi:

- Novuz bayramı Azərbaycan xalqının ən sevimli və əziz bayramlarından biridir. Ona görə bu gün mən və Müdafiə nazirinin müavinləri bu bayramı sizlərlə keçiririk. Biz indi ön cəbhədən qayıdırıq. Sizin silahdaşlarınızı orada təbrik etdik. Ön cəbhədə torpaqlarımızı necə qəhrəmanlıqla qoruduqlarını gördük. Siz də burda öz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirirsiniz.

Bilin ki, düşmən artıq təlaş içindədir. Biz onlara elə zərbələr endiririk ki, onlar qorxub qaçırlar. Cəbhədə xidmət etmək istəmirlər, səngərlərdən qaçırlar. Onlar mülki adamları postlara yerləşdirmək məcburiyyətindədirlər. Biz gərək işğalçıları öz torpaqlarımızdan qovaq. Biz buna qadirik və bunu edəcəyik.

Cənab Ali Baş Komandan ordumuzun gücləndirilməsi üçün əlindən gələn hər bir şeyi edir. Bizim xalqımız qəhrəman xalqdır, bizim igid övladlarımız var və biz öz torpaqlarımız uğrunda daha igidliklə, qəhrəmancasına döyüşməklə torpaqlarımızı azad etməliyik. Artıq həmin gün yaxınlaşıb. Silahlı Qüvvələrimiz günü-gündən möhkəmlənir, yeni silahlar, texnikalar alınır.

Mən açıq bəyan edirəm ki, biz elə ilk zərbədən onların 70 faizini məhv edəcəyik. Bizim o qədər silah və texnikamız var ki, ermənilərə zərbə endirsək, yüz illərlə özlərinə gələ bilməyəcəklər. Nə qədər ki, gec deyil, ermənilər bunu anlamalı və torpaqlarımızı könüllü surətdə tərk etməlidirlər.

Silahlı Qüvvələrimizin hər bir hərbi qulluqçusu gecə və gündüz hər fürsətdən istifadə edərək düşməni məhv etməlidir. Düşmən işğal altında olan torpaqlarımızda rahat oturmamalıdır, daim qorxu içərisində yaşamalıdır. Torpaqlarımız azad edilməli, şəhidlərimizin qisası alınmalıdır.

Artıq məqam yetişibdir. Biz qısa müddətdə torpaqlarımızı azad edəcəyik. Siz cənab Ali Baş Komandanın Novruz bayramı munasibəti ilə etdiyi cıxışını izləmisiniz. Möhtərəm Prezident dedi ki, biz tarixi torpaqlarımıza qayıdacağıq. Biz İrəvana, Zəngəzura, Şuşaya, Xankəndinə qayıdacağıq. Bu, mütləq olacaq və heç kim buna şübhə etməsin.

Mən sizi bir daha bayram münasibəti ilə təbrik edir, sizə cansağlığı və qələbə arzulayıram. Arzu edirəm ki, hamımız birlikdə, yaxın vaxtda bu qələbə bayramını qeyd edək.

Müdafiə nazirinin çıxışı alqışlarla qarşılandı.

Çıxışından sonra Müdaifə naziri yeməkxanaya gələrək əsgərlərlə süfrə arxasında oturub çörək yedi, onlarla söhbət etdi.

Hansı hərbi hissədə olduqsa, Azərbaycan əsgərini gülərüz, cəsur və qəhrəman gördük. İnanırıq ki, Müdafiə nazirinin cəbhə bölgələrinə bu səfəri zabit və əsgərlərimizin xidmətə məsuliyyətini daha da artıracaq, onlar torpaqlarımızın keşiyində bundan sonra da ayıq-sayıq dayanacaqlar...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

# Novruz bayramı münasibətilə bayram tədbirləri

***Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsi tərəfindən birləşmə, hissə və bölmələrdə şəxsi heyət arasında hərbi xidmətə marağın artırılması, döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, kollektivlər arasında yarışma ruhunun, səmimi yoldaşlıq hisslərinin gücləndirilməsi və hərbi intizamın möhkəmləndirilməsi məqsədi ilə əməli tədbirlər görülür. "Bədii özfəaliyyət kollektivlərinin yaradıcılığına baxış" müsabiqəsinin keçirilməsi də dediklərimə əyani nümunədir.***





Xəbər verdiyimiz kimi, 10-13 mart 2015-ci il tarixlərində Naxçıvan Qarnizonunun Zabitlər Evində müsabiqənin ən yaxşı ifaçı və fəallarının seçilmə mərhələsi olub. 18 mart 2015-ci il tarixdə isə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında müsabiqənin qaliblərinin iştirakı ilə qala-konserti və mükafatlandırma mərasimi keçirilib. Ən yaxşı yaradıcı hərbi kollektiv və ən istedadlı hərbi qulluqçuların seçildiyi müsabiqə 2015-ci tədris ilinin təsdiq olunmuş döyüş hazırlığı planına və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" müvafiq sərəncamına uyğun olaraq təşkil edilib.

Novruz bayramı ərəfəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında təşkil olunan mərasimdə Ordunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi zabit Mirqiyas Rüstəmov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli və digər çıxış edənlər şəxsi heyəti həm Novruz bayramı münasibəti ilə, həm də müsabiqədə qazanılan nailiyyətlərə görə təbrik edərək xidmətlərində uğurlar arzuladılar.

Sonra müsabiqənin qalib hərbi qulluqçularından ibarət qala-konsertinə başlanıb. Konsertin sonunda qaliblərin mükafatlandırılması mərasimi olub. Qaliblər Əlahiddə Ümumqoşun Ordusu Komandanlığı tərəfindən təltif ediliblər.

1-ci, 2-ci və 3-cü yerlərə sahiblənən hərbi qulluqçular təltif edildikdən sonra ən yaxşı ifalarına görə digər hərbi qulluqçular da mükafatlandırılıblar. Musiqi alətlərində ən yaxşı ifalarına görə tarda əsgərlər Elgün Bayramov, Teyyub Əyyublu və Əli Həsənov, fleytada əsgər Sadiq Ağalarov, sazda əsgər Aydın Quliyev, kamançada əsgər Sultan Nadirov, qarmonda əsgərlər Suliddin Əliyev və Şəmil Tarverdiyev, pianinoda əsgər Ülvi Əhmədov, skripkada isə müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu əsgər Rza Quliyev fərqləniblər. Vətənpərvərlik mahnılarının ən yaxşı ifaçısı isə əsgərlər Rüstəm Əyyublu, Rasim Qasımov, Firudin Balacayev və Nəriman Məmmədov olublar.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

***Novruz bayramı Hərbi Dəniz Qüvvələrində də təntənəli surətdə qeyd edilib. Mərkəzi Zabitlər Evinin və Qurban Abbasov adına Suraxanı Rayon Mədəniyyət Evinin bədii kollektivinin iştirakı ilə bayram konsert proqramları təşkil olunaraq keçirilib. Şəxsi heyət üçün bayram süfrəsi təşkil olunub və şəxsi heyətə bayram sovqatı paylanılıb.***



Hərbi Dəniz Qüvvələri Komandanlığı adından 1-ci dərəcəli kapitan Ramil Əsgərov bayram münasibətilə şəxsi heyəti təbrik etmək üçün bölmə və gəmilərdə olub. Şəxsi heyətə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında aparılan dövlət quruluculuğundan, islahatlardan, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən Silahlı Qüvvələrin gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb, şəxsi heyəti Müdafiə naziri və Hərbi Dəniz Qüvvələri Komandanı adından təbrik edib, şəxsi heyətə döyüş qabiliyyətinin, hərbi intizamın yüksəldilməsi istiqamətində xidmətdə uğurlar diləyib. Daha sonra 1-ci dərəcəli kapitan R.Əsgərov bayram münasibəti ilə hədiyyələr təqdim etdikdən sonra şəxsi heyət üçün hazırlanan bayram süfrəsinə qonaq olub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

***Martın 18-də Səbail rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayon ictimaiyyətinin nümayəndələri ənənəyə sadiq qalaraq, Novruz bayramında da cəbhə bölgəsində, düşmənlə üz-üzə xidmət edən əsgərlərin yanında oldular. Dövlət bayramlarında tez-tez döyüşçülərin görüşünə gələn səbaillilər əsgərlərə sovqat gətirərək ilaxır çərşənbəni onlarla birgə qeyd etməyi özlərinə mənəvi borc biliblər.***



Qonaqları səmimi qarşılayan polkovnik-leytenant Ruslan Ağasiyev bayram günündə cəbhə bölgəsinə gəldikləri üçün başda Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov olmaqla bütün səbaillilərə təşəkkür etdi. Bildirdi ki, onlar hər zaman olduğu kimi yenə səngərlərdə ayıq-sayıq xidmət edəcəklər. Zabit R.Ağasiyev əlavə etdi ki, düşmənin istənilən təxribat-diversiya qruplarının hərəkətlərinin qarşısı qətiyyətlə alınacaq və hər zaman olduğu kimi yenə onu ağır itkilərə düçar edəcəklər.

Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Novruz bayramı münasibətilə əsgərləri təbrik etdi. Onlara çətin və şərəfli xidmətdə müvəffəqiyyətlər arzuladı. Natiq hərbi hissənin şəxsi heyətinə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yaradılan şəraitdən söz açdı. Ölkə başçısının apardığı məqsədyönlü siyasət nəticəsində işğal altında olan torpaqlarımızın tez bir zamanda düşməndən azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə əmin olduğunu bildirdi. Lazım gələrsə, onlar da silaha sarılaraq torpaqlarımızın azad olunması üçün düşmənə qarşı döyüşəcəklərini qeyd etdi.

Respublika Hərbi Prokurorluğunun şöbə rəisi polkovnik Nazim Orucov Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru general-leytenant Xanlar Vəliyevin əsgərlərə Novruz bayramı təbrikini çatdırdı.

Səbail RİH-nin hədiyyələri, rayonun orta məktəblərinin kollektivlərinin hazırladıqları bayram xonçaları, müxtəlif ləvazimatlar və məktəblilərin əsgərlərə ünvanladıqları məktublar şəxsi heyətə təqdim olundu.

Xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin bir qrupu Səbail rayon İcra Hakimiyyətinin xatirə hədiyyələri ilə mükafatlandırıldı.

Sonda döyüşçülərə tanınmış incəsənət ustalarının ifaları təqdim olundu. Əməkdar artist Aygün Bəylərin, populyar ifaçı Elçin Məmmədovun və musiqiçı Vüqar Mövlayevin gözəl çıxışları əsgərlərin ürəyincə oldu.

Bayram şənliyindən sonra qonaqlar hərbi hissənin şəxsi heyəti ilə birlikdə bayram süfrəsi arxasında nahar etdilər. Hərbi hissə komandirinin əmri ilə xidmətdə fərqlənən bir qrup əsgərə məzuniyyət verildi. Onlar həmin gün Səbail RİH-nin nümayəndələri ilə evlərinə yola salındılar.

* * *

Qədim əyyamlardan üzü bu yana Novruz bayramı xalqımızın ən böyük bayramıdır. Novruzun adət-ənənəsinə görə bu ərəfədə insanlar yaxınları ilə bayramlaşır, küsülülər barışır, evlərdə bayram xonçası hazırlanır, bol süfrələr açılır. Vətənin keşiyində dayanan oğulların bayramı evdə, doğmaları ilə qeyd edə bilməməsi Səbail rayon rəhbərliyinin diqqətindən kənarda qalmadı. Rayon rəhbərliyinin nümayəndələri Novruz şənliyini ərazidə yerləşən hərbi hissədə əsgərlərlə birgə keçirməyi özlərinə borc biliblər. Səbail rayonunda keçirilən tədbirlər çərçivəsində rayonun günbəgün inkişaf edən Badamdar qəsəbəsində icra nümayəndəliyi və bələdiyyənin də iştirakı ilə "N" hərbi hissəsində Novruz şənliyi keçirilib.

İki hərbi hissənin şəxsi heyətinin iştirak etdiyi tədbiri zabit F. Əzizov açdı, Novruz bayramı münasibəti ilə şəxsi heyəti və qonaqları təbrik etdi. O, ölkə başçısının ordu quruculuğu istiqamətində apardığı məqsədyönlü işlərindən, hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığından və əldə edilən uğurlarından danışdı.

Tədbirdə çıxış edən Səbail rayon İcra Hakimiyyəti başçısının Badamdar qəsəbəsi üzrə nümayəndəsi Zaur Əliyev Novruz bayramı münasibəti ilə əsgərləri təbrik edib, onlara çətin və şərəfli xidmətdə müvəffəqiyyətlər arzulayıb. Qəsəbə nümayəndəsi ölkə başçısı cənab İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən, Badamdar qəsəbəsində son illərdə həyata keçirilən sosial yönümlü layihələrdən danışıb. Qəsəbədəki quruculuq və abadlıq işlərində hərbçilərin də iştirakını xüsusilə qeyd edib.



Səbail rayon İcra Hakimiyyətinin şektor müdiri İsrafil Kərimov hərbi hissənin şəxsi heyətini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ordumuz üçün yaradılmış şərait müqabilində daha yaxşı xidmət etməyə çağırdı.

Səbail rayon İcra Hakimiyyəti, qəsəbə ictimaiyyətinin nümayəndələri, bələdiyyə üzvləri, ağsaqqallar, 236, 239 və 329 saylı orta məktəblərin nümayəndələri hərbi hissələrin şəxsi heyətinə ən xoş arzu və istəklərini çatdırdılar.

Tanınmış incəsənət ustalarının iştirakı ilə bayram konserti keçirildi. Tədbirdə əsgərlərə bayram sovqatları təqdim edildi. Şənlik bayram tonqalı ətrafında davam etdi. Daha sonra əsgərlər üçün bayram süfrəsi açıldı.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Erməni hərbi qulluqçu könüllü olaraq Azərbaycan tərəfinə keçib



Martın 22-də günorta saatlarında, ilkin məlumata görə, 1991-ci ildə Xocavənd rayonunda anadan olmuş, Ermənistan silahlı qüvvələrinin hərbçisi, müqavilə əsasında hərbi xidmət keçən hərbi qulluqçu Andranik Araratoviç Qriqoryan öz hərbi hissəsini tərk edərək könüllü surətdə Azərbaycan tərəfinə təslim olub.

Qoşunların təmas xəttini keçən erməni hərbçisi hərbi qulluqçularımız tərəfindən saxlanılıb.

İlkin dindirmədə Andranik Qriqoryan bildirib: "Mən 1991-ci ildə Martuni rayonunda anadan olmuş Andranik Araratoviç Qriqoryanam. 22 mart 2015-ci il tarixində könüllü olaraq Azərbaycan tərəfinə keçmişəm. Bunun çox sadə bir səbəbi var. Mən mənasız yerə ölməkdən qorxuram.

Cəbhə xəttini keçəndə mən tək deyildim. Mənimlə siz tərəfə keçməyə cəhd göstərən bir nəfər də var idi. Mən daha cəld tərpəndim. Silahı atıb sizə tərəf gəldim. Onun taleyindən xəbərim yoxdur. Güman edirəm ki, artıq sağ deyil.

Nə qədər erməni hakimiyyəti öz xalqından martın 19-da olan hadisəni gizlətmək istəsə də, artıq hamı bilir. Mənasız təşkil olunmuş təxribat zamanı 20-dən artıq ölü, onlarla yaralı var. Əsgər çatışmadığına görə postlara mülkiləri yerləşdirirlər.

Mən onların çirkin oyunlarının növbəti qurbanı olmaq istəmirəm. Qarabağdakı dözülməz şərait, hərbi hissələrdəki intizamsızlıq, silah-sursat çatışmazlığı, qida və dərman qıtlığı, yerli ermənilərlə ermənistanlı ermənilər arasındakı münaqişə, zabitlərin əsgər və gizirlərə pis münasibəti və hərc-mərclik məni cana yığıb. Mənim kimi o tərəfdə bu cür yaşamaqdan bezib bura keçmək istəyən çoxlu sayda insan var.

Amma açığını deyim ki, burda onları nə gözlədiyini bilmədikləri üçün ürək etmirlər. Mən də bu addımı atmazdan əvvəl çox düşündüm və qərara gəldim orada qalıb ölüm saatımı gözləməkdənsə, könüllü təslim olum. Gözlədiyimin tam əksi olaraq burda məni normal qarşıladılar və doyunca yemək-içmək verdilər.

Bir də buradan əlində məcbur silah tutan yoldaşlarıma səslənib demək istəyirəm ki, azərbaycanlılar heç də o, cinayətkar hakimiyyətin illərdir bizim beynimizə yeritdikləri kimi deyillər. Nə qədər ki, gec deyil, siz də mənim kimi edin".

Hazırda təhlükəsizliyi təmin olunmaqla saxlanılan əsir A.Qriqoryanla hamılıqla qəbul edilmiş insan hüquqları normaları daxilində rəftar edilir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Ermənilər cəbhədə minaatanlardan istifadə ediblər

## Düşmən səngərlərindəki hədəflərə cavab zərbələri endirilib

Son vaxtlar cəbhədə uğursuzluğa düçar olan və çoxsaylı itkilərə məruz qalan Ermənistan silahlı qüvvələri son sutka ərzində qoşunların təmas xəttində vəziyyəti daha da gərginləşdirmək məqsədilə 60 və 82 millimetrlik minaatanlardan, iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini pozublar.

Azərbaycan tərəfi cavab tədbirləri məqsədilə düşmən səngərlərindəki hədəflərə və atəş nöqtələrinə daha üstün və iri çaplı silahlardan zərbələr endirib.

Müdafiə Nazirliyi bildirir ki, düşmənin təxribatları davam edərsə, görüləcək adekvat tədbirlər daha sərt və genişmiqyaslı, onun verəcəyi itkilər isə erməni xalqının növbəti faciəsinə çevriləcəkdir.

Silahlı Qüvvələrimizin bölmələri tərəfindən heç bir itki yoxdur. Bütün cəbhə boyu əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası adyunkturaya qəbul elan edir

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası Müdafiə nazirinin əmrinə müvafiq olaraq, 2015-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya (doktorantura və dissertanturaya) qəbul elan edir.***

***Qəbul "73 - Milli təhlükəsizlik və hərbi elmlər" sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:***

**1. 7301.01 - Hərbi nəzəri elmlər:**
a) fəlsəfə doktoru hazırlığı üzrə - əyani - 1 yer, qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 2 yer;
b) elmlər doktoru hazırlığı üzrə - qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 1 yer.

**2. 7302.01 - Hərbi xüsusi elmlər:**
a) fəlsəfə doktoru hazırlığı üzrə - əyani - 2 yer, qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 3 yer;
b) elmlər doktoru hazırlığı üzrə - qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 1 yer.

**3. 7303.01 - Hərbi təbabət:**
a) fəlsəfə doktoru hazırlığı üzrə - qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 1 yer.

**4. 7304.01 - Milli təhlükəsizlik:**
a) fəlsəfə doktoru hazırlığı üzrə - əyani - 1 yer, qiyabi - 1 yer, dissertantlıq yolu ilə - 1 yer.

Fəlsəfə doktoru proqramı üzrə adyunktura Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan, ali təhsilli (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), həmçinin pedaqoji və ya elmi-tədqiqat işində bacarığı olan zabitlər (qulluqçular) qəbul olunur. Mülki ali təhsil müəssisələrini bitirən zabitlər, bundan əlavə zabit vəzifələrində iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdır.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmaq qabiliyyəti və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan zabitlər (qulluqçular) qəbul edilir.

Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 1.05.2015-ci il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə verilir.

Raporta əlavə olunur:
- çap olunmuş elmi siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış zabitlər (qulluqçular) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xidməti xasiyyətnamə;
- xidmət vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- çap olunmuş elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə);
- "Elmlər doktoru" elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış zabitlər (qulluqçular) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- Dissertasiyanın açıq planı (elmlər doktoru hazırlığı üzrə).

Hərbi hissələrin komandirləri, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturaya daxil olmaq istəyənlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 1 iyun 2015-ci il tarixinədək Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisinə göndərməlidir.

Adyunkturaya seçim və qəbul qaydaları Azərbaycan Respublikası Müdafiə nazirinin əmrinə uyğun olaraq həyata keçiriləcək.

**Ünvan:** *Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, Qızıl Şərq şəhərciyi, Silahlı Qüvvələrinin Hərbi Akademiyası.*
*Əlaqə telefonu: (012) 538-41-53*
*E-mail: doktorantura@box.az*

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 320
Nüsxə 4600